UOT 94(479.24)

ZƏHRA İSLAMOVA
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin müəllimi
https://orcid.org/0000-0002-9530-4263
zahraislamova@bsu.edu.az

VƏQF ƏMLAKININ HÜQUQİ SƏNƏDLƏŞMƏSİ: ASNAQARAN KƏNDİNİN BABAGİL MƏQBƏRƏSİNƏ VƏQFİ NÜMUNƏSİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/112/5-8

Bu məqalə orta əsrlərdə Azərbaycanda vəqf əmlakının sənədləşməsi və vəqfnamələrin hüquqi-funksional mahiyyəti barədədir. Tədqiqatda vəqfnamələrin formalaşma prinsipləri, yazı üslubu, struktur elementləri və şəriət hüququ ilə əlaqəsi araşdırılır. Asnaqaran kəndinin Babagil məqbərəsinə vəqf edilməsi haqqında təsdiqnamə nümunəsi əsasında vəqfnamələrin necə tərtib olunduğu, sərhəd təsvirləri, vəqf şərtləri, mütəvəllilik sistemi və hüquqi legitimləşmə prosesi təhlil edilir. Məqalə göstərir ki, vəqfnamələr yalnız dini sənəd deyil, həm də sosial münasibətləri tənzimləyən, mülkiyyətin qorunmasını təmin edən mühüm hüquqi institut olmuşdur.

Açar sözlər: Səfəvilər, Azərbaycan, vəqf, vəqfnamə, mütəvəlli, şəriət hüququ.

Giriş. Vəqf institutu İslam sivilizasiyasında dini-xeyriyyə fəaliyyətinin, sosial müdafiə sisteminin və ictimai məkanların idarə olunmasının əsas mexanizmlərindən biri kimi formalaşmışdır. Orta əsr Azərbaycanında vəqflər məscidlərin, mədrəsələrin, xanəgahların, türbələrin, su kəmərlərinin, bazarların və digər ictimai təsisatların davamlı fəaliyyətini təmin edən hüquqi-ictimai institut kimi mühüm rol oynayırdı. Vəqfin hüquqi əsasını təşkil edən vəqfnamələr isə bu əmlakın idarə edilməsini, sərhədlərini, gəlir mənbələrini və istifadə şərtlərini ətraflı müəyyənləşdirən normativ sənədlər sistemidir.

Vəqfnamələrin tərtibi xüsusi dini-hüquqi normalara uyğun şəkildə aparılır, şəriət hakimləri tərəfindən təsdiq edilməklə qanuni qüvvə qazanırdı. Bu məqalədə vəqfnamələrin strukturu, yazı ənənəsi, hüquqi mahiyyəti araşdırılır və Asnaqaran kəndinin Babagil məqbərəsinə vəqf olunmasına dair sənəd nümunəsi əsasında konkret tətbiq prinsipləri təhlil edilir. Məqsəd orta əsrlərdə vəqf sənədlərinin həm hüquqi institut, həm də sosial tənzimləmə mexanizmi kimi fəaliyyət mexanizmini üzə çıxarmaqdır.

Vəqfnamə anlayışı və hüquqi əhəmiyyəti. Vəqfin var olmasını əsaslandıran vəqfnamə yalnız dini bir mətn deyil, həm də hüquqi dəyərə malik sənəd kimi cəmiyyətin sosial münasibətlərini nizama salırdı. Vəqfnamə - hər hansı bir mülkün, torpaq və ya əmlakın dini, xeyriyyə və ictimai məqsədlərə sərf olunması üçün hüquqi cəhətdən təsdiq olunmuş sənəddir. Onun əsas mahiyyəti vəqf edənin (vaqif) iradəsini təsdiqləmək, əmlakın istifadəsini və gəlirinin yönləndirilməsini müəyyənləşdirməkdir. Vəqf əmlakı əkin torpaqları, bağlar, üzümlüklər, həmçinin su kanalları və ya kəhrizlər, heyvan sürüləri, şəhərlərdə – karvansaralar, dükanlar və ya bütün bazarları əhatə edə bilərdi. Vəsiyyət edən şəxs vəqf sənədində vəqf etdiyi əmlakının dəqiq sərhədlərini göstərməklə yanaşı, əmlakın idarə edilməsi və gəlirləri ilə bağlı müxtəlif şərtlər qoya bilərdi, həmçinin vəqfin nəzarətçisi – mütəvəlli vəzifəsinə özünü və nəslinin nümayəndəsini təyin etməyi şərtləndirə bilərdi. İstənilən halda vəqf əmlakı ilə bağlı bütün incəliklər vəqfiyədə qeyd olunmalı idi.

İslam hüquqşünaslarının əksəriyyəti vəqfi "Allah yolunda saxlanılan, mülkiyyət hüququ şəxsi istifadədən çıxarılıb ictimai istifadəyə verilən mülk" kimi izah edirlər. Vəqfnamə yazılı şəkildə tərtib edilir, şahidlər tərəfindən təsdiqlənir və qazı (şəriət hakimi) tərəfindən qanuni qüvvə qazanırdı.

İlkin yazılı mənbələrdə "vəqfnamə" anlayışı ilə yanaşı, vəqf əmlakının hüquqi qeydiyyatı və idarəçiliyi ilə bağlı "vəqfnaməçə", "təsdiqnamə", "qəbalə" və "sicil" kimi müxtəlif terminlərə də rast gəlinir.

Vəqfnamələrin quruluşu və məzmunu. Vəqfnamə vəqf edilən əmlakın xüsusiyyətləri və vəqf edilmə şərtlərini ehtiva edən və qazı tərəfindən təsdiq edilən sənəddir. Azad və şüurlu şəkildə, hər hansı təzyiqə və təsirə məruz qalmadan istənilən şəxs özünə məxsus malını-mülkünü vəqf edə bilərdi.

Vəqf edilən əmlakın davamlı gəliri olması, xeyriyyə məqsədi əsas şərtlərdən hesab edilirdi. Qeyd edilən şərtlərin olduğu halda, vaqif vəqfnamə tərtib edə bilərdi. İslam hüququna əsasən hər bir kəs özündən sonra qalan əmlakına dair vəsiyyəti ən azı iki şahidin iştirakı ilə edilməlidir. Öz əmlakını vəqf edən, vəsiyyət edən şəxs, yəni müvəssi bu işə icraçı yəni vəsi (vəsiyyəti icra etmək üçün təyin olunmuş şəxs) təyin etməlidir. Vəsiyyət edən öz malının üçdə birini istədiyi kimi sərəncam verə bilər: istədiyi şəxsə müəyyən miqdarda pul, torpaq və ya əşya vəsiyyət edə bilər. Allaha xoş gəlmək və "ruhun xilası" naminə malın bir hissəsinin vəqf edilməsi və ya qulların bir hissəsinin azad edilməsi kimi məsələlər də vəsiyyətnamə ilə nəzərdə tutulurdu. Müvəssidən qalan əmlakın üçdə ikisi qanuna görə hər bir halda vərəsə ola biləcək qohumlar arasında bölünməli idi.

Vəqfnamənin hüquqi forması (şəriət normaları əsasında tərtibat). Vəqfnamələr adətən klassik İslam hüququ normalarına uyğun şəkildə yazılırdı. Onların **forması** üç əsas hissədən ibarət idi:

1. **Giriş və dini-dua formulu** – vəqfin "səbilullah" (Allah yolunda) edildiyi vurğulanırdı.
2. **Əmlakın təsviri** – vəqf olunan torpaq, bağ, dükan, su mənbəyi, karvansara və digər obyektlər dəqiq sərhədləri ilə sadalanırdı.
3. **İstifadə qaydaları** – gəlirlərin kimə və hansı məqsədlə ayrılacağı, mütəvəllinin kimliyi, səlahiyyətləri və məsuliyyəti qeyd olunurdu.

Vəqfnamələr şəriət qaydalarına əsasən xüsusi hüquqi üslubda tərtib edilirdi. Burada əvvəlcə vəqf edən şəxsin (vaqifin) niyyəti və vəqfin əbədi olması şərti qeyd olunurdu. Əmlakın satılmaması, irsi verilməməsi və yalnız müəyyən olunmuş istiqamətlərdə istifadə edilməsi barədə bəndlər yazılırdı. Qazı və ya müfti tərəfindən təsdiq edilən sənədlər hüquqi qüvvəyə malik olurdu. Bu formaya görə vəqfnamə həm dini, həm də dövlət nəzarətində etibarlı hüquqi sənəd sayılırdı.

Orta əsrlər dövründə vəqfiyyələrin qanuni qüvvəyə minməsi üçün bir və daha çox qazının təsdiqi olmalı idi. Hökmdarlar tərəfindən tərtib edilmiş vəqfnamələr də belə hökmdar tuğrasından sonra qazının möhürü olmalı idi.

<u>Asnaqaran kəndinin Babagil məqbərəsinə vəqf olunması haqqında təsdiqnamənin nümunəsində vəqfnamənin tərtibi və tərkibinə baxaq.</u> Bu sənəd Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun elmi arxivi, fond 1, iyahı 2, iş №298 olaraq saxlanılır (Musəvi səh 44-45). Asnaqaran kəndi indiki Lənkəran-Lerik yolunun 40-cı kilometrliyində yerləşir.

Vəqfnamə tərtib edilərkən əvvəlcə vəqfnamənin tərtib edən və təsdiq edən hökmdar, hakim, qazı və ya digər səlahiyyətli nümayəndələrin möhür və imzaları qoyulurdu. "*Əmir Əhməd Deriğinin göstərişi əsasında tərtib olunmuşdur*" (3, s.44).

1) müqəddimə hissəsi tərtib edilir, yəni mətnin başlanğıcında Allahın adı ilə duaya yer verilir, Allaha şükürlər və Allah yolunda xeyriyyənin əhəmiyyətinə dair Qurandan hər hansı bir ayə yazılırdı. Ardınca Peyğəmbər və Əhli-beytə salavat gətirilir. Sənədin Müqəddimə hissəsində *"Şükr olsun o allaha ki, göylərin yaradıcısı və mülklərin sahibidir. Peyğəmbərə, onun vəsisi və həmsirrinə, xeyirxah nəsillərinə allahın salavatı olsun"* (3, s.44).

2) Müqəddimədən sonra vaqifin adı, məqsədi və şərtləri açıqlanır, həmçinin əmlakın əvvəlki tarixinə dair vəziyyəti, vəqf edən şəxsin kimliyi, tutduğu vəzifə, doğulduğu, yaşadığı ünvan, vəqf edilən ərazinin yeri qeyd olunurdu. *"Bu şərif qayəli və səhih dəlilli sözləri yazmaqda məqsəd odur ki, çünki Asnaqaran kəndi aşağıda qeyd olunan sərhədlərin movcibincə ən qədim zamanlardan indiyədək ariflərin sultanı, türbəti müqəddəs Sultan Babagilin zaviyəsinə düzgün surətdə vəqf edilmişdir ki, onun karvansarası.... çeşmə və çaylarından istifadə edilsin"* (3, s. 44). Asnaqaran kəndinin Babagil məqbərəsinə vəqf olunması haqqında təsdiqnaməyə əsasən *"Vəqf olunmuş kəndin hüdudu ibarətdir: birinci həddə, Lənkərkonana (Lənkəran şəhərinin keçmiş adı) tabe olan Barcagandan Miyankuh sərhəddi ilə Əvvəlsər bərəsinə qədər uzanaraq, Laqeyn bəndi və bərəsinə, Miyankuh sərhəddinə yapışmış və üzüaşağı Bırkəndul çayına qədər uzanaraq böyük çaya qovuşmuş, Tovsən, Şəmdüzdə və Lüvəsər alalarının üstünə qədər başıyuxarı qalxmış və Kürəsər bəndinə yağışmış, sonra üzüaşağı enərək Hicrənariyə və oradan Azərbican çayına qədər enmiş və buradan Siyanəxş yamacına, Şakünəmeydan, Qələdüzdan və Bahadüləkuhə qədər yuxarı qalxmış, sonra üzüaşağı enərək, Vərazərud (Lənkəran çayının keçmiş adı) adlı böyük çaya yapışmış, Türəasur yamacı ilə yuxarı qalxaraq, birinci həddə çatmışdır"* (3, s.45).

3) Növbəti sətrdə vəqfin şərtləri açıq və dəqiq olmaqla bir-bir göstərilirdi. İstifadəsi kimlərə aiddir, hansı şərtlər əsasında istifadə və idarə edilməlidir, irsi olaraq sahiblik hüququ kimə məxsus

olması məsələləri sənəddə aydın şəkildə qeyd edilirdi. *"Babagilin bu düzgün, şəri və kişi övladına aid vəqfi haqqındakı qanun-qaydalar bütün şəxslərə şamildir"* (3, s.44). 4) Bundan sonra vəqfin idarəsi, qeydiyyatı və təsdiqi üçün mütəvəllinin kimliyi göstərilirdi.

5) Vəqfnamənin tərtibatında vaqifin və mütəvəllinin təqdimatından sonra vəqf edilən əmlak (əgər əmlaklar çoxdursa ayrı-ayrılıqda sıra ilə) dəqiqliklə təsvir edilir, sərhədləri, onun yerləşdiyi kənd, mahal və qonşuluqdakı mülklərin sahibləri kimi sərhəd təsvirləri yazılırdı. Əmlakın növünə görə (torpaq, bağ, dükan, karvansara, hamam və digərləri) ayrı-ayrı bəndlər tərtib olunurdu. Vəqfnamədə vəqf edilən əmlak ümumi adda "mevkuf" adlanırdı. Mevkuf həm daşınar, həm daşınmaz əmlak olduğuna görə, daşınmaz əmlakların təsvirindən sonra, daşınan əmlakların təsviri verilirdi. Əgər vəqf edilən puldursa, onun dəqiq miqdarı və şərtləri göstərilirdi. Bu dəqiqlik gələcəkdə mübahisələrin qarşısını almaq məqsədi daşıyırdı. *"Asnaqaran kəndi müqəddəs Sultan Babagilin zaviyəsinə onun karvansarası, hənpargahı[1], əkin yeri, döşənəcəyi, bəyaz yerləri, bar verən və bar verməyən ağaclarından, xanəgahı, istirahətgahı, otlağı, çəltik zəmiləri, çəmənləri, su və su arxları, çeşmə və çaylarından istifadəsi vəqf edilmişdir"*. Vəqfnamədə gəlirlərin sərf ediləcəyi yerlər, xərclərin miqdarı və xərclənmə üsulları, müddəti dəqiqliklə öz əksini tapmalı idi. Hətta əlavə gəlir olduğu halda hara və kimə xərclənməsi belə nəzərdə tutularaq, mütləq şəkildə qeyd olunurdu. Eyni zamanda, vəqf edilmiş müəssisənin xidmətçiləri və onların əmək haqqları da göstərilirdi.

6) Sonda vəqfin şərtlərinin yerinə yetirilməsi şərti qəti olaraq bildirilir, əbədiliyi vurğulanırdı. Əksər hallarda sənədin sonunda "şəriət üzrə dəyişdirilməzdir" qeydi əlavə olunurdu. Asnaqaran kəndinin Babagil məqbərəsinə vəqf olunması haqqında təsdiqnaməyə əsasən *"vəqf zorakılıq, batillik, imtina və cəbrdən tamamilə kənardadır", "bunu eşitdikdən sonra hər hansı adam onu dəyişdirərsə, günahı onu dəyişdirən adamların boynuna düşəcəkdir"* (3, s.44-45).

Vəqfnamənin sonunda tərtib tarixi, qeydlər və şahidlər varsa, adları və imzaları qeyd olunmalı idi. "Bu sənəd 915-ci ilin rəcəbül-mürəccəb (1508-ci ilin oktyabr) ayında yazılmışdır". Sənədin haşiyə hissəsində Əmir Əhmədin, Sultan Mahmudun, Murad Sultanın və Əmir bəyin qeydləri və möhürləri vardır.

Bəzi hallarda vəqfnamənin şərtlərini təsdiqlənməsi üçün əlavə hökmdar fərmanları və ya yüksək dövlət idarələrinin hökmləri olurdu. Bu hökm və fərmanlar vəqf hüququ, idarəçilik ənənəsi və şəriət prinsipləri baxımından çox əhəmiyyətli hüquqi göstəricilər ehtiva edirdi. Hökmdarın rəsmi fərmanları, bir növ, vəqfnamənin tamamlayıcı hüquqi sənədi funksiyasını daşıyır, həmçinin bu fərmanlar şəri vəqfnamənin (şəxsi və ya dini sənədin) üzərində dövlət təsdiqidir ki, bununla vəqfin qanuni qüvvəsi və toxunulmazlığı təmin edilirdi. Qeyd edilən vəqflər qazılar tərəfindən məhkəmə və ya hökumət sicillərində qeydiyyata alınırdı. Bu sənədlər vəqf mülklərinin hüquqi statusunu təsdiq edən rəsmi qeydiyyat materialları olub, onların qorunması və sistemləşdirilməsi dövlət səviyyəsində həyata keçirilirdi. Vəqf edilən əmlakın müəyyən bir binası varsa, vəqfnamə həmin binanın divarına həkk olunurdu. Azərbaycanda bugünə qədər oxunması mümkün olan vəqfnamələrin əksəriyyəti məcid divarlarına həkk olunmuş sənədlərdir.

Nəticə. Aparılan tədqiqat göstərir ki, orta əsr Azərbaycanında vəqfnamələr həm dini-mənəvi, həm də hüquqi-inzibati funksiyaları birləşdirən kompleks sənədlər sistemi idi. Onların tərtibatında sərhədlərin dəqiqliklə göstərilməsi, əmlakın növlərinin ayrılıqda təsviri, vəqf şərtlərinin geniş şəkildə qeyd olunması, mütəvəllinin səlahiyyətlərinin müəyyənləşdirilməsi və şəriət hakimlərinin təsdiqi vacib elementlər kimi çıxış edirdi. Asnaqaran kəndinə dair təqdim olunan nümunə vəqfnamələrin həm mülkiyyətin qorunmasına, həm də xeyriyyə məqsədlərinin davamlı təmininə xidmət etdiyini bir daha təsdiqləyir. Nəticə etibarilə, vəqfnamələr orta əsr cəmiyyətində sosial sabitliyin, dini təsisatların davamlılığının və mülki münasibətlərin hüquqi tənzimlənməsinin fundamental vasitələrindən biri olmuşdur.

ƏDƏBİYYAT

1. Akgündüz Ahmed. İslam hukukunda ve Osmanlı tatbikatında Vakıf müessesesi. 3. Baskı. -İstanbul: Osmanlı Araştırmaları Vakfı, 2013, 612 s.

[1] *Hənpargah – hökmdarın, əmirlərin və ya yüksək rütbəli şəxslərin rəsmi görüş, qəbul və idarəetmə üçün istifadə etdiyi saray otağı və ya inzibati məkan.*

2. Bayramlı, Z.H., Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövləti (XVI–XVII əsrlər). Bakı: Avropa Nəşriyyatı, 2016, 344 s.
3. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1965, 130 s.
4. Yediyıldız, Bahaeddin. XVIII. Yüzyılda Türkiyede vakıf müessesesi: bir sosiyal tarih incelemesi. Ankara: Türk Tarih Kurumu, 2003. 506 seh.
5. Озиев Г. Б., Рафиков И. Ш.. Вакф: концепция, управление, развитие и финансирование. -К.: 2023. - 182 с.
6. Петрушевский И.П. Ислам в Иране в VII - XV веках (курс лекций) / Отв. ред. В.И. Беляев. Л.: Издательство Ленинградского университета, 1966. - 200 с.

ЗАХРА ИСЛАМОВА
Преподаватель Бакинского Государственного Университетаа,
Кандидат исторических наук

ДОКУМЕНТАЛЬНОЕ ОФОРМЛЕНИЕ ВАКУФНОГО ИМУЩЕСТВА: НА ПРИМЕРЕ ПЕРЕДАЧИ ДЕРЕВНИ АСНАГАРАН МАВЗОЛЕЮ БАБАГИЛ

Статья посвящена изучению системы документального оформления вакуфного имущества и юридико-функциональной природы вакуфнамэ в средневековом Азербайджане. В исследовании анализируются принципы составления вакуфных актов, их стилистические особенности, структурные элементы и связь со шариатским правом. На основе подтверждающего документа о передаче деревни Аснакаран мавзолею Бабагил рассматриваются порядок оформления вакуфнамэ, описание границ имущества, условия вакуфа, система мутевелли и процедуры юридической легитимации. Показано, что вакуфнамэ представляли собой не только религиозные тексты, но и важный правовой институт, регулирующий социальные отношения и обеспечивающий защиту имущественных прав.

Ключевые слова: Сефевиды, Азербайджан, вакуф, вакуфнамэ, мутевелли, шариатское право.

ZEHRA ISLAMOVA
Lecturer of Baku State University,
PhD in History

LEGAL DOCUMENTATION OF WAQF PROPERTY: THE CASE OF ENDOWING THE VILLAGE OF ASNAQARAN TO THE BABAGIL SHRINE

This article examines the documentation of waqf property and the legal-functional nature of waqf deeds (waqfnamas) in medieval Azerbaijan. The study analyzes the principles of drafting waqf documents, their stylistic features, structural components, and their relationship with Islamic (Shari‘a) law. Using the confirmation deed concerning the endowment of the village of Asnaqaran to the Babagil shrine, the article explores the procedures of waqfname preparation, boundary descriptions, waqf conditions, the mutawalli (trustee) system, and the process of legal legitimization. The findings demonstrate that waqfnamas served not only as religious documents but also as an important legal institution regulating social relations and ensuring the protection and continuity of endowed property.

Keywords: Safavids, Azerbaijan, waqf, waqfname, mutawalli, ıslamic law.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Mehman Abdullayev, t.e.d. İsmayıl Məmmədov.